Respublika .- 2024.- 24 dekabr (№ 284).- S.19.

# Davamlı diplomatik uğur ölkəmizin dünyada rolunu artırır

*Xalqımız özünün çoxəsrlik dövlətçilik ənənələrini davam etdirərək Azərbaycan Respublikası Konstitusiyasını qəbul edərkən bütün cəmiyyətin və hər kəsin firavanlığının təmin edilməsini arzulayaraq, ədalətin, azadlığın və təhlükəsizliyin bərqərar edilməsini istəyərək, keçmiş, indiki və gələcək nəsillər qarşısında öz məsuliyyətini anlayaraq ali niyyətlərini bəyan edib. Konseptual prioritetlərin ehtiva olunduğu həmin niyyətlərdə mərkəzi xətti insan amili təşkil edir və təsadüfi deyil ki, ulu öndər Heydər Əliyevin şah əsəri olan Konstitusiyamızda dövlətin ali məqsədləri tam mənada insan tandeminə fokuslanıb. Ana Qanunumuzun 12-ci maddəsində ifadə edildiyi kimi, insan hüquq və azadlıqlarının, Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədidir.*

Milli dövlətçilik tarixinə nəzər yetirsək, birmənalı şəkildə əminliklə deyə bilərik ki, cənab İlham Əliyevin rəhbərliyi ilə özünün ən şanlı dövrünü yaşamaqda olan Azərbaycan bu gün tarixinin heç bir dönəmində olmadığı qədər əhatəli formada ali məqsədlərini realizə edir. Əlbəttə, bunun müxtəlif aspektlərdə obyektiv və subyektiv səbəbləri var, lakin dəyişməyən məqam ondan ibarətdir ki, qeyd edilən bütün amillərin zəminində düzgün idarəçilik dayanır. Təməli Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulan siyasi kursu uğurla, tam yeni müstəvi və mərhələyə yüksəltməklə, daha konkret desək, siyasi müstəqilliyi möhkəmlətmək, iqtisadi müstəqilliyi isə bərqərar etməklə, o cümlədən 30 ildən artıq davam etmiş işğal və təcavüzə son qoymaqla, regionda ilk dəfə separatizmin kökünü kəsməklə cənab İlham Əliyev qürurverici mənzərəyə nail ola bilmişdir. Cənab Prezidentin köklü problemləri öz güc və imkanlarımız hesabına hərbi-siyasi yolla həll etməsi bu gün respublikamızın özünün ali məqsədlərinə fokuslanmağa, yeni tarixi-siyasi mərhələni başlatmağa imkan vermişdir.

Ölkə başçımız bu il fevralın 14-də andiçmə mərasimində də qeyd etdiyi kimi, "indi isə yeni dövr başlayır. Biz bu dövrə alnımız açıq, üzümüz ağ, başımız dik daxil oluruq. Bu dövrün böyük nailiyyətləri olacaq, mən buna şübhə etmirəm".

Qarabağ və Şərqi Zəngəzur cəmiyyətin ən sağlam, müasir və abad yaşayış mühitinə çevrilir, dayanıqlı məskunlaşma üçün müasir prinsiplərə əsaslanan komfortlu yaşayış mühiti yaradılır. İşğaldan azad olunan ərazilərin Azərbaycanın böyük gələcəyinə tam inteqrasiyası üzrə addımlar isə dövlətimizi ali məqsədlərə doğru daha da yaxınlaşdırır. İşğaldan azad edilmiş ərazilərin ölkənin iqtisadi və sosial simasında tarixi mövqeyinin bərpa edilməsi, bölgədə iqtisadi fəaliyyətin aparıcı həlqələrindən birinə çevrilməsi və ölkənin digər regionlarına uyğun inkişaf səviyyəsinə malik olması istiqamətində səylərin ilkin nəticə verməsi bu prosesdə gözləntilərin miqyasını daha da artırır. Bu isə dövlətimizin hər bir vətəndaşın rifahının yüksəldilməsi, onun sosial müdafiəsi və layiqli həyat səviyyəsi qayğısına qalması barədə öhdəliklərinin təntənəsi deməkdir. Cənab İlham Əliyevin yaratdığı bu reallıq insan hüquqlarının daha səmərəli təmini istiqamətində geniş üfüqlər açır. Artıq səmimiyyətlə demək mümkündür ki, cənab İlham Əliyevin nail olduğu konfiqurasiya Konstitusiyamızın 16-cı maddəsinin II hissəsinə uyğun olaraq mədəniyyətin, təhsilin, səhiyyənin, elmin, incəsənətin inkişafına ən effektiv şəraitin yaradılmasına gətirib çıxarır. Qeyd edilən reallıqların təməlində obyektiv gerçəklik dayanır, cənab İlham Əliyevin özünün də ifadə etdiyi kimi, "Əgər güclü Azərbaycan qurmasaydıq, əgər kimdənsə istər siyasi, istər iqtisadi sahədə asılı olmuş olsaydıq, heç vaxt biz ərazi bütövlüyümüzü bərpa edə bilməzdik".

Əlbəttə, uğurlar tarixi əhəmiyyət daşıyır və gələcək inkişafımızın, vətəndaş rifahının təməlində dayanan vacib amildir, lakin daha vacib olanı bu nailiyyətlərin davamlılığının təmin edilməsidir. Bunun üçün isə Prezident İlham Əliyevin çox sadə və sınanmış bir formulu mövcuddur, dövlət başçımızın bu il inaqurasiya mərasimində də ifadə etdiyi kimi, "Milli birlik daimi olmalıdır, çünki Azərbaycanın önəmi artır, dünyada oynadığı rolu artır".

Sirr deyil ki, əldə olunan uğurlar regiona mənfur niyyətlərlə yanaşan kəsimləri qane etmir. Hərb meydanında məğlub olanların bizə qarşı ideoloji təxribatları isə qaçılmazdır. Dövlət başçımızın təbirincə desək, "Bizim işimizə kölgə salmaq, bizi diskriminasiyaya uğratmaq, Azərbaycan haqqında əsassız və yalançı, mənfi imic yaratmaq - biz bütün bunları gündəlik həyatda görürük, Azərbaycan xalqı görür və bundan hiddətlənir".

Hərbi təcavüz qarşısına Dəmir Yumruqla çıxan və qələbə qazanan Azərbaycanın ideoloji təhdidlər qarşısında əsas silahı isə heç şübhəsiz ki, azərbaycançılıq məfkurəsinə əsaslanan humanitar siyasətdir. Sevindirici haldır ki, inkişaf strategiyamız mədəniyyətin, təhsilin, səhiyyənin, elmin və incəsənətin inkişafına da nəinki təsirsiz ötüşməmiş, şəxsən cənab İlham Əliyevin və Birinci vitse-prezident, Heydər Əliyev irsini böyük şərəflə növbəti nəsillərə daşıyan, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın xüsusi diqqətindədir. İstər Vətən müharibəsindəki Zəfərimizə qədər, istərsə də qələbəmizdən sonra ələlxüsus mədəniyyət və idman siyasəti yaratdığımız reallıqların qorunması və bu situasiyanın qlobal miqyasda qəbul olunması istiqamətində təsirli vasitə kimi çıxış etmişdir.

Məsələn, müasir Azərbaycan tarixinin mədəni həyatında uğurlu hadisələrindən biri 2012-ci ildə Bakıdan yayımlanan və ölkəmizin ev sahibliyi etdiyi Avroviziya mahnı müsabiqəsini dünyanın 47 ölkəsindən 180 milyondan artıq insan canlı efirdə izləmiş, yarış öncəsi və sonrası 15 gündə isə 100 mindən artıq turist ölkəyə axın etmişdi. Bu isə istər iqtisadi prizmadan, istərsə də Azərbaycanla bağlı əyani təsəvvürlər yaradılması baxımından müstəsna qələbə demək idi.

Bu mənada, əminliklə demək mümkündür ki, qeyd edilən layihələrin uğurla təşkili Azərbaycana qarşı qarayaxma kampaniyaları və ədalətsiz hücumların qarşısında müstəsna effektə ciddi siyasi yükə malik cavab aləti və cənab İlham Əliyevin başçılığı ilə qazanılmış böyük Qələbə sonrası yeni dövr Azərbaycanın güc və imkanlarının təsdiqi kimi çıxış edir. Nəticə isə göz önündədir. Ötən ilin dekabrında 200 ölkənin yekdil qərarı ilə Azərbaycanın COP29-a ev sahibliyi hüququ qazanması Vətən müharibəsi və antiterror tədbirlərinin ardınca yaranan yeni reallıqların qlobal miqyasda qəbul edilməsi, möhtərəm Prezidentin təbirincə desək, "bizim ölkəyə hörmət əlaməti və bizim fəal rolumuzun beynəlxalq arenada qiymətləndirilməsi demək idi". Azərbaycan Respublikasının bu tədbiri uğurla keçirməsi isə ölkəmizin qlobal liderlik missiyasını uğurla realizəsi və bizi hədəfə alan beynəlxalq subyektlər üzərində böyük zəfər kimi tarixə düşdü.

Təbii ki, Azərbaycanda beynəlxalq miqyaslı tədbirlərin uğurlu təşkili ölkəmizlə bağlı "təhlükəli coğrafiya" mifləri uydurmuş güclərin fiaskosu demək idi və bütün dünya ölkəmizin cənab İlham Əliyevin ifadə etdiyi kimi, sabitlik və təhlükəsizlik adası olduğuna şahidlik etdi.

Üstəlik, Prezident İlham Əliyevin uğurlu konsepsiyası çərçivəsində zəngin mədəni irsimiz yalnız müdafiə taktikasının parçası ola bilməzdi və bu mənada, Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondunun təşəbbüsləri ələ alaraq Rusiya, Türkiyə, İtaliya, Fransa, Yunanıstan, İsrail, Qətər və digər ölkələrdə Mədəniyyət Günlərini təşkil etməsi hücum siyasətimizin önəmli elementinə çevrilə bildi.

Təbii ki, sosial, siyasi və mədəni siyasət özlüyündə çox önəmli vasitədir, lakin unutmamalıyıq ki, Qafqaz kimi mürəkkəb regionda bu sahədə uğur qazanmaq, mədəni irs və sərvətlərdən, o cümlədən aidiyyəti tədbirlərdən milli mənafelər naminə istifadə etmək yalnız qətiyyətli siyasi iradənin mövcudluğu şəraitində sabit, təhlükəsiz mühitdə mümkündür. Azərbaycanda isə ulu öndər Heydər Əliyevin zəngin siyasi irsinə əsaslanan və milli mənafeləri tam və hərtərəfli ehtiva edən belə bir iradə mövcuddur və görünən odur ki, daha güclü Azərbaycan naminə bu kursun davamlılığı istisnasız şərtdir.

**İbrahim ZAHİDLİ,**
**EU Business School Geneva məzunu.**